Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azad edilmiş ərazilərə böyük qayıdış prosesi sürətlənir...

**Dağlıq Qarabağ münaqişəsinin tarixə qovuşmasından sonra Azərbaycan üçün maraq doğuran əsas məsələlərdən biri azad edilmiş ərazilərdə insanların yüksək həyat şəraitinin təmin edilməsidir. Bura həm doğma yurd-yuvasına qayıdacaq azərbaycanlılar, həm də azad edilmiş ərazilərdə qalaraq Azərbaycan vətəndaşlığını qəbul edəcək ermənilər, eləcə də digərləri aid edilir.**

Azərbaycan bu istiqamətdə məqsəd və niyyətlərini artıq ən yüksək səviyyədə beynəlxalq aləmin diqqət mərkəzinə çatdırıb.

### Azərbaycanın mövqeyi təqdir edilir

Dağlıq Qarabağda bütün millətlərdən olan Azərbaycan vətəndaşlarının dinc şəkildə birgəyaşayışının təmin edilməsi istiqamətində ölkəmizin mövqeyi və atdığı addımlar bu gün dünya miqyasında təqdir edilir. Hazırda bölgədə sülhməramlı missiya həyata keçirən Rusiya da regionda yaşayan bütün xalqların nümayəndələri arasında dialoq qurulmasını, iqtisadi və nəqliyyat bağlantılarının açılmasını dəstəkləyir. Bu xüsusda Azərbaycanın mövqeyini alqışlayır. Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova qeyd edilən məsələ ilə bağlı bildirir: "Dağlıq Qarabağla bağlı 10 noyabr 2020-ci il tarixli və 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatlara əsasən regiona kollektiv səylərlə dinc həyat qayıdır. Burada təkcə Azərbaycan və Ermənistanın yox, bütün ölkələrin vahid mövqedən çalışmaları mühümdür. Dağlıq Qarabağda son günlərdə vəziyyət stabildir. Atəşkəsin pozulması halı qeydə alınmayıb. Rusiya sülhməramlıları 27 postda müşahidə aparır. Regionda yaşayan bütün xalqların nümayəndələri arasında dialoq qurulmasına, iqtisadi və nəqliyyat bağlantılarının açılmasına dəstək verməyimiz, tarixi və mədəniyyət abidələrinin mühafizəsini təmin etməyimiz vacibdir. Əvvəla dayanıqlı sülh bərqərar olunmalıdır ki, Qarabağa qayıdacaq insanlar bu təməl üzərində həyatlarını bütün istiqamətlərdə qursunlar".

Onu da qeyd edək ki, burada Qarabağa qayıdacaq insanlar deyərkən məhz azərbaycanlılar nəzərdə tutulur. Çünki Ermənistan tərəfinin məlumatına əsasən, Qarabağı tərk edən ermənilərin hamısı geri qayıdıb. Ermənistanın əmək və sosial məsələlər naziri Mesrop Arakelyan bildirib ki, Qarabağa 100 mindən çox erməni qaytarılıb: "Qarabağda əvvəl yaşayan ermənilərin, demək olar ki, hamısı geri qaytarılıb". Düzdür, rəqəmlər heç də reallığı əks etdirmir. Belə ki, Rusiya sülhməramlıları 14 noyabrdan indiyə qədər 52631 ermənin Qarabağa qaytarıldığını açıqlasa da, Ermənistan özü bu rəqəmi ən azı iki dəfə şişirdib. Xatırladaq ki, ermənilərin qayıdışının məsuliyyəti və təhlükəsizliyi Rusiya sülhməramlılarının üzərindədir. Bu səbəbdən sirr deyil ki, Rusiya tərəfinin rəsmi statistikası reallığa daha yaxındır. Reallıq həm də budur ki, Qarabağa qayıdan ermənilərin böyük əksəriyyəti burada əmlakını satdıqdan sonra Ermənistana qayıtmağa çalışır. Qarabağda bütün kommunal xidmətlərin pulsuz olmasına, Rusiya sülhməramlılarının Qarabağdakı ermənilərə həftədə adambaşına 5 kiloqram ərzaq yardımı etməsinə, eyni zamanda, onlar üçün evlərin tikintisini həyata keçirməsinə baxmayaraq, Qarabağa qayıtmaq istəyən ermənilərin sayı çox deyil. Onlardan bəziləri isə gətirildikdən az sonra Xankəndini tərk edir. Lakin istənilən halda Ermənistan rəsmiləri bütün Qarabağ ermənilərinin geri qayıtdığını bildirir. Bu da o deməkdir ki, Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Qarabağa qayıdacaq insanlar barədə danışarkən azərbaycanlıları nəzərdə tutur. Azərbaycanlılar öz doğma yurdlarına qayıtdıqdan sonra onların burada ermənilər və digərləri ilə birlikdə təhlükəsiz şəraitdə yaşamasını təmin etməyə Azərbaycan tam hazırdır. Ölkəmizin bu mövqeyi isə, yuxarıda qeyd olunduğu kimi, təqdir edilir.

### İrimiqyaslı quruculuq işləri başlanır

Azərbaycanın iqtisadi potensialı işğaldan azad olunmuş ərazilərdə irimiqyaslı quruculuq işləri həyata keçirilməsi üçün bütün imkanları açır. Bu, azərbaycanlıların öz yurdlarına qayıtması zamanı üzləşə biləcəkləri bütün problemlrin bəri başdan həllinə imkan yaradır, böyük qayıdışı stimullaşdıracaq hal qismində çıxış edir. Qeyd edək ki, işğaldan azad edilmiş bütün rayonlarımızın baş planları hazırlanıb başa çatdıqdan sonra orada bərpa-quruculuq işlərinə start veriləcək.

O da faktdır azad edilmiş ərazilərin bərpa olunması, yenidən qurulması indiki pandemiya şəraitində dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Azərbaycanın gücünü və qüdrətini göstərən möhtəşəm bir hadisədir. Bu, həm də Qarabağda qalan ermənilərin Azərbaycan vətəndaşlığını daha tez qəbul etməsinə təsir edəcək. Çünki onlar üçün qüdrətli Azərbaycanın tərkibində yaşamaq yüksək həyat tərzi deməkdir. Bütün bunlar həm də onun təsdiqidir ki, Azərbaycan Vətən müharibəsində hərbi-siyasi qələbəsi ilə yeni reallıqlar yaradıb. Bu qələbə fonunda Qarabağda yeni quruculuq və bərpa dövrü başlanıb, işğaldan azad edilmiş ərazilər böyük qayıdış üçün hazırlanır. Bununla Qarabağda yenidən həyat canlanacaq, vətəndaşlar sülh və əmin-amanlıq şəraitində yaşayacaq. Burada bir məqamı da xüsusi qeyd etmək lazım gəlir ki, azad edilmiş rayonlarda qısa müddət ərzində artıq 7 min hektar torpaq sahəsində əkin işləri aparılıb. Bu, ölkəmizin ərzaq təhlükəsizliyi, eləcə də kənd təsərrüfatının inkişafı baxımından olduqca əhəmiyyətlidir. Ümumiyyətlə, azad edilən ərazilərdə ən azı 6-7 rayonun kənd təsərrüfatı sahəsi daha sürətlə inkişaf edəcək, məhsuldarlıq artacaq, fermerlər, kəndlilər daha çox pul qazanacaqlar. Bu da böyük qayıdışı stimullaşdıran əsas məqamlardan hesab edilir. İşğaldan azad olunmuş ərazilərdə müvafiq dövlət qurumları tərəfindən həyata keçirilən və planlaşdırılan prioritet layihələr, o cümlədən telekommunikasiya və poçt infrastrukturunun qurulması, Füzuli hava limanının, dəmir və avtomobil yollarının tikintisi, ərazilərin minalardan təmizlənməsi layihələrinin icrası, yuxarıda qeyd olunduğu kimi, bölgəyə yeni həyat gətirəcək.

O da mühüm məqamdır ki, işğaldan azad edilmiş torpaqlarda bərpa proqramına uyğun olaraq görüləcək işlər 30 ilə yaxın öz doğma yurd-yuvasından didərgin düşmüş soydaşlarımızın böyük qayıdışı ilə başa çatmaqla yanaşı, bu ərazilərin malik olduğu imkanlardan səmərəli istifadə etməklə qeyri-neft sektorunun inkişafını daha da sürətləndirəcək. Ölkəmiz bu sahədə mövcud imkanları ilə dünyanın diqqətində olmaqla yanaşı, investisiya cəlbediciliyini artıracaq. Hazırda isə mühüm məsələlərdən biri işğaldan azad olunmuş ərazilərdə yeni idarəetmə modelinin qurulması, həmin torpaqlarda aparılan bütün işlərin sistemləşdirilməsi və növbəti mərhələdə oraya böyük qayıdışın təmin olunmasıdır. Bununla bağlı xatırladaq ki, Prezident Administrasiyasında işğaldan azad edilmiş torpaqlarımızda aparılan işlərlə bağlı qərargah yaradılıb. Qərargahın əsas fəaliyyət istiqamətlərindən biri işğaldan azad edilmiş ərazilərlə bağlı irəli sürülmüş təşəbbüslərin qiymətləndirilməsi, eyni zamanda, bölgənin rifahı istiqamətində planlı işlərin aparılmasıdır. Bundan başqa, işğaldan azad edilmiş ərazilərimizdə yeni idarəetmə sistemi qurulur, dövlət başçısının xüsusi nümayəndələri ərazilərə təhkim olunur. Xatırladaq ki, ilkin olaraq Şuşa şəhərinə xüsusi nümayəndə təyin edilib.

### Bərpa işlərinə dünya miqyasında maraq böyükdür

Onu da qeyd edək ki, böyük qayıdışın tezləşdirilməsi məqsədilə azad edilən ərazilərdə həyata keçirilən abadlıq-quruculuq işlərinə beynəlxalq maraq da yüksəkdir. Artıq bəzi ölkələrin təmsilçiləri bu prosesdə iştirak edir. Qeyd edilən məsələdə, xüsusən qardaş Türkiyə tərəfi daha çox fərqlənir.

İşğaldan azad edilmiş torpaqların bərpası və inkişafı ilə bağlı strategiyanın reallaşmasında Türkiyə şirkətləri mühüm rol oynayır. Türkiyə-Azərbaycan Biznes Forumunda çıxışı zamanı baş nazir Əli Əsədov bu xüsusda bildirib: "Tarixi Vətən müharibəsində zəfərdən sonra ölkəmiz üçün yeni dövr başlayıb. İşğaldan azad edilmiş torpaqların bərpası və inkişafı ilə bağlı strategiya hazırlanıb. Azərbaycan Prezidentinin dediyi kimi, hədəfimiz Qarabağı dünyanın ən gözəl bölgələrindən birinə çevirməkdir. Artıq bərpa işlərinə başlanıb və ilkin kontraktlar imzalanıb. Əlbəttə ki, ilkin tərəfdaşlarımız türk qardaşlarımızdır". Baş nazir bildirib ki, türk şirkətləri artıq infrastruktur layihələrini icra etməyə başlayıblar: " Zəfər yolu adlanan Füzuli-Şuşa yolu, həmçinin Toğana-Kəlbəcər yolunun tikintisində artıq türk şirkətləri iştirak edirlər. Bundan əlavə, Füzulidə tikiləcək hava limanının layihəsində də türk şirkətlərinin iştirakı nəzərdə tutulub. Ümumiyyətlə, bərpa işlərinin layihələrində türk qardaşlarımızı görməkdən çox məmnunuq". Azərbaycan digər xarici investorları işğaldan azad olunmuş ərazilərdə həyata keçiriləcək layihələrdə əməkdaşlığa dəvət edib.

Burada o da dünya miqyasında nəzərə alınır ki, İşğaldan azad edilmiş ərazilərin böyük iqtisadi potensialı və təbii ehtiyatları var. Bu ərazilərin aqrar istehsal və ixrac potensialı kifayət qədər böyükdür. Təbii sərvətlərin, faydalı qazıntıların işlənilməsi isə investisiyaların qoyuluşu baxımından böyük perspektiv vəd edir. Artıq bu səbəbdən Yaponiya, ABŞ, Macarıstan, Böyük Britaniya, İran və digər ölkələrdən olan şirkətlər işğaldan azad edilən ərazilərdə bərpa işlərində maraqlı oldurlarını bildiriblər. Azad edilən ərazilərə yerli və xarici investisiyaların cəlbi həm burada quruculuq işlərini sürətləndirəcək, həm də əhalinin məşğulluğunun təmin edilməsi baxımından vacib əhəmiyyət kəsb edəcək.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**